

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 mart 2025-ci il №16 (2925) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz qardaş və dost kimi həqiqətən birgə işləyirik və bunu davam etdirəcəyik



*Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Qvineya-Bisau Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun fevralın 27-də Bakıda rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qvineya-Bisau Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Qvineya-Bisau Prezidenti Umaru Sisoku Embalonu qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Qvineya-Bisau Prezidentinə raport verib.

Qvineya-Bisau Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qvineya-Bisau Prezidenti Umaru Sisoku Embalonun qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə təkbətək görüşü olub.

* * *

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.

* * *

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Əziz qonaqlar, xanımlar və cənablar.

Əziz qardaşım, xoş gəlmisiniz. Bir daha Sizə "Xoş gəlmisiniz!" deyirəm. Sizin son səfəriniz yadımdadır, noyabr ayında COP29 konfransında iştirak etmək üçün ölkəmizdə oldunuz. Mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etdim və şadam ki, o, mənim dəvətimi qəbul etdi. Beləliklə, bu gün cənab Prezident artıq ikinci dəfədir ki, ölkəmizdədir. Bu, bizim sıx qardaşlıq münasibətlərimizin aydın təzahürüdür. Bu onu göstərir ki, biz qardaş və dost kimi həqiqətən birgə işləyirik və bunu davam etdirəcəyik.

Bu səfər tarixi səfərdir. İlk dəfədir ki, Qvineya-Bisaunun Prezidenti rəsmi səfərə gəlib. Biz artıq ikitərəfli gündəliyə aid olan mühüm məsələləri müzakirə etdik və belə razılığa gəldik ki, tərəfdaşlığımızı bütün sahələrdə gücləndirək. Siyasi münasibətlər çox yaxşıdır. Bir daha qeyd etmək istəyirəm, bunun ən yaxşı təzahürü ondan ibarətdir ki, cənab Prezident ölkəmizə ikinci dəfədir səfər edir. Beynəlxalq təsisatlarda bir-birimizi hər zaman dəstəkləyirik, bunu belə də davam etdirəcəyik. BMT və digər beynəlxalq təsisatlarda, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında bir-birimizi dəstəkləyirik.

**(Ardı 2-ci səhifədə)**



"Tarixi Zəfərin sevincini həmişə yaşayacağıq"

**3-cü səhifədə**



Vətən müdafiəçiləri yetişdirən məktəb - Heydər Əliyev adına Hərbi Lisey

**4-cü səhifədə**



"Xidmətimiz Vətən üçündür"

**7-ci səhifədə**

# Naxçıvan Hərbi Kollecində "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbirlər təşkil olunub

Naxçıvan Hərbi Kollecinin və Naxçıvan Hərbi Prokurorluğunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Vətənə sədaqət müqəddəsdir" və "Vətəni müdafiə hər bir vətəndaşın borcudur" mövzularında tədbir keçirilib.

Milli Müdafiə Universiteti xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində kursantların tədris şəraiti və dərslərlə, kollecin kitabxanasında təşkil edilmiş kitab və jurnal sərgisi ilə tanış olublar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra vətənpərvərlik mövzusunda videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamı ilə bu ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hər bir vətəndaşın, xüsusilə



hərbi qulluqçuların və kursant heyətinin Konstitusiya dəyərlərinə, milli suverenliyə və yüksək vətənpərvərlik ruhuna olan bağlılığını daha da möhkəmləndirəcək.

Kursantlara təhsillərində uğurlar arzulayan Samir Seyidəhmədli onların Naxçıvan Hərbi Kollecinin adını yüksək tutaraq göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edərək vurğulayıb ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində 2 il davam edən tədris dövründə kursantların qidalanması, təhsili, sosial təminatı və asudə vaxtının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb.

**(Ardı 4-cü səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz qardaş və dost kimi həqiqətən birgə işləyirik və bunu davam etdirəcəyik








(Əvvəli 1-ci səhifədə)

Biz iqtisadi sahədə belə bir razılığa gəldik ki, konkret layihələr, investisiya imkanları müəyyən edilsin. Əminəm ki, beləliklə, biz ümumi məxrəcə gəlib çıxacağıq. Çünki biz artıq bir çox ölkələrə sərmayələr yatırırıq. Əlbəttə, biz məmnun olardıq ki, konkret layihələr fürsətini nəzərdən keçirək. Biz, həmçinin hesab edirik ki, bu, müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlıq etmək üçün fürsət yaradır. Cənab Prezident Azərbaycanın hərbi hissələrinin birində olacaq və ona, o cümlədən Azərbaycanın müdafiə sənayesi haqqında təqdimat ediləcək. Bu ola bilsin ki, bizim dostlarımız üçün maraqlı olsun.



Bir sözlə, gündəlik genişdir, ən vacibi isə odur ki, bizim sıx qardaşlıq münasibətlərimiz var, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləyirik və biz konkret layihələri icra etmək istəyirik. Çünki siyasi münasibətlər bunun üçün bir platforma kimi xidmət edir.

Ümid edirəm ki, əziz qardaşım, Siz bir daha ölkəmizə gələcəksiniz. Həmçinin cənab Prezident məni öz ölkəsinə səfərə dəvət etdi. Məmnunluqla bunu edəcəyəm və biz öz məhsuldar dialoqumuzu davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz.

* * *

Sonra Qvineya-Bisau Respublikasının Prezidenti mətbuata bəyanatla çıxış etdi.

### Prezident Umaru Sisoku Embalonun bəyanatı

- Çox sağ olun, əziz qardaşım Prezident Əliyev.

Bu gün burada - Bakıda olmaqdan və münasibətlərimizə yenidən nəzər salmaqdan məmnunam. Çünki xatirimdədir ki, hələ Sovet İttifaqı vaxtlarında bir çox texniki heyət üzvlərimiz burada təhsil almışdır. Sabah ilk heyətimiz buraya polis və hərbi məktəblərdə təlim üçün gələcək. Bu, bizim üçün çox vacibdir. Bu gün biz bu əlaqələri, əməkdaşlığı yeniləmək üçün buradayıq.

Əməkdaşlıq üçün sahə çoxdur - səhiyyə, təhsil, hərbi və təhlükəsizlik sahələri var. Əminik ki, bu səfər Sizi görməklə bərabər, ölkələrimiz üçün də faydalı olacaq.

Cənab Prezident, Qvineya-Bisau və Azərbaycan iki dost ölkədir, bizim amallarımız ümumidir. Bir sıra vacib məsələlər üzrə əminlik var. BMT və İƏT çərçivəsində əməkdaşlıq edirik. Biz də, siz də həmin iki təşkilatın üzvüyük.

Təkbətək görüşdə biz beynəlxalq münasibətlərə aid çox məsələləri müzakirə etdik və bir-birimizi dəstəkləməklə bağlı razılığa gəldik. Düşünürəm ki, bu, daha vacibdir. Birgə işləmək üçün hədəfləri müəyyən edə bilərik. Əl-ələ verib ölkələrimizi daha yaxın etmək üçün işləyə bilərik.

Sağ olun cənab Prezident.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

* * *

Azərbaycanda rəsmi səfərdə olan Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Bakıda Zəfər parkını ziyarət edib.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Qvineya-Bisau Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Bildirilib ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, parkın açılışı 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub.

* * *

Ölkəmizdə rəsmi səfərdə olan Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələri yad edilib, məzarları üstünə gül dəstələri qoyulub.

* * *

Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun Azərbaycan Respublikasına rəsmi səfəri fevralın 28-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Qvineya-Bisau Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunun hərbi qulluqçusu Cənubi Koreyada təhsilini fərqlənmə ilə bitirib







Fevralın 27-də Seul şəhərində Cənubi Koreya Respublikasının Quru Qoşunları Akademiyasında təhsil alan kursantların buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun hərbi qulluqçusu leytenant Əliyev Ədib Nazim oğlu təhsildə fərqləndiyi və xarici kursantlar arasında 1-ci yerə layiq görüldüyü üçün medalla təltif olunub.

"Koreya Quru Qoşunlarının Xidmətdə Fərqlənmə Medalı"nı hərbi qulluqçumuza Cənubi Koreya Respublikasının milli müdafiə nazirinin vəzifələrini icra edən cənab Kim Seon-ho təqdim edib.

# Qvineya-Bisau Prezidenti komando hərbi hissəsində olub







***Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo fevralın 27-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayevlə birlikdə Azərbaycan Ordusunun komando hərbi hissələrindən birini ziyarət edib.***

Əvvəlcə hərbi hissədə fəxri qarovul dəstəsinin müşayiəti ilə təntənəli qarşılanma mərasimi olub.

Müdafiə Nazirliyi xəbər verir ki, sonra hərbi hissənin idman zalında Müdafiə Sənayesi Nazirliyinin təqdim etdiyi yeni simulyasiya vasitəsinə baxış keçirilib və hərbi qulluqçuların idman hazırlığı izlənilib.



Qonaqlar hərbi hissənin ərazisindəki qapalı atış şəhərciyi, əsgər yataqxanası, silah otağı, əşya anbarı, ideoloji iş və digər inzibati otaqlara, həmçinin yeməkxanaya gələrək burada yaradılan şəraitlə tanış olublar.

Həmçinin hərbi qulluqçuların dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətləri izlənilib.

Hərbi hissədə Müdafiə Sənayesi Nazirliyinin, həmçinin "RTX" və "Improtex" şirkətlərinin istehsal etdiyi pilotsuz uçuş aparatı (PUA), silah, avtomobil və xüsusi texnika, eləcə də digər döyüş vasitələrindən ibarət sərgi nümayiş olunub.

Daha sonra nümayəndə heyətinə Azərbaycan Ordusunun istifadəsində olan silah-sursat, təchizat və döyüş texnikası təqdim edilib. Qvineya-Bisau nümayəndə heyətinə onların taktiki-texniki xüsusiyyətləri, düzgün istifadə qaydaları ilə bağlı geniş məlumat verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkdirilib.



## Azərbaycan və Serbiya nümayəndələri arasında ekspert görüşü keçirilib



Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında 2025-ci il üçün imzalanmış ikitərəfli əməkdaşlıq planına əsasən, iki ölkə nümayəndələrinin iştirakı ilə "44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror əməliyyatları" mövzusunda ekspert görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Serbiyadan olan nümayəndə heyətinə "Ərazi bütövlüyünə aparan yol - 44 günlük Vətən müharibəsi", "Vətən müharibəsindən sonra Azərbaycan Ordusunda həyata keçirilən islahatlar", "Müdafiə strategiyası" və "Suverenliyi bərpa etmək üçün antiterror tədbirləri" mövzularında brifinqlər təqdim olunub.

Ekspert görüşü zamanı hərbi əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində olublar.



Burada təqdim olunan brifinqdə Serbiya nümayəndə heyətinə müasir standartlara uyğun avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilmiş komanda məntəqəsinin tarixi, fəaliyyət istiqaməti, qarşıda duran məqsəd və vəzifələri barədə məlumatlar verilib. Qonaqları maraqlandıran suallar cavablandırılıb.

## “Tarixi Zəfərin sevincini həmişə yaşayacağıq”

Gizir Hüseyn Nəzərli Azərbaycan Ordusunun vətənpərvər hərbi qulluqçularından biridir. Yeddi ildir ki, Vətənə xidmət borcunu seçdiyi müqəddəs hərb sənəti sayəsində qürurla və şərəflə yerinə yetirir. O, 44 günlük Vətən müharibəsinin, eləcə də ordumuzun həyata keçirdiyi uğurlu antiterror əməliyyatının iştirakçısıdır. Sinəsində "Ağdamın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarını böyük iftixar hissi ilə daşıyır.

Sabirabad rayonunun Şıxsalahlı kəndində doğulub böyüyən Hüseyn hərb sənətinə bağlılığının Vətənə, torpağa sonsuz sevgisindən bəhrələndiyini dedi: "Heç bir sözlə əvəz edilməyən, məzmun etibarilə çoxşaxəli olan "vətənpərvərlik" məfhumu hər bir insanda tədricən formalaşır. Ayaq basdığın müqəddəs Vətən torpağı dünyanı dərk etdikcə səni özünə bağlayır, ona sevgimiz, məhəbbətimiz artır. Vətənpərvərlik hissi o deməkdir ki, öz dövlətinin tərəqqisi üçün can yandırıb, doğma xalqının tarixi və mədəniyyəti ilə fəxr edəsən, Vətənin rifahı, xoşbəxt gələcəyi naminə əlindən gələni etməklə onu yağı düşməndən qoruyub, uğrunda canından belə keçməyə hazır olasan. Bax, budur, Vətənə layiqli övlad olmaq. Bu gün Azərbaycanda bütün bu hissləri özündə qoruyub saxlayan, ehtiva edən gənc nəsil var. Onlar vətənpərvərlik ruhunda formalaşıblar. Hansı ki,



o gənclər Vətən müharibəsi başlayanda silaha sarılıb doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpası naminə ağır döyüşlərə atıldılar. Canlarından keçib şəhid oldular, yaralandılar, sağlamlıqlarını itirdilər. Düşməni illərlə işğalda saxladıqları torpaqlarımızdan qovub çıxartdılar.

Məğrur Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini şərəflə yerinə yetirdi. Bu il qazanılan qələbəmizin beşinci ildönümü olacaq. Xalqımız haqq etdiyi böyük Zəfərinin növbəti ildönümünü təntənə ilə qeyd edəcək. Azərbaycan Ordusu qalib xalqın qalib ordusudur. Tarixi Zəfərin sevincini həmişə yaşayacağıq".

Hüseyn doğulub böyüdüyü, üzərində ilk addımlarını atdığı ana torpağını çox sevir, onu düşməndən qorumağı özünün əsas vəzifəsi bilir. Azərbaycan Ordusu da belə vətənsevər gənclikdən formalaşıb möhkəmlənir və gündən-günə daha da qüdrətlənir.

Vətənə xidmət etmək hər kəsin müqəddəs borcudur. Bu şərəfli borcu peşəkarlıqla yerinə yetirmək üçün Azərbaycan Ordusunun hərbi qulluqçuları üzərinə düşən bütün vəzifələrə məsuliyyətlə yanaşırlar. Hüseyn yenidən ordu sıralarına böyük həvəslə qayıdıb. Komandirlərinin və şəxsi heyətin rəğbətini qazanıb. Hər bir tapşırığın öhdəsindən bacarıqla gəlir.

Gizir Hüseyn Nəzərli ilə söhbətimiz mənə bir daha onu deməyə əsas verdi ki, xalqımıza Zəfər salnaməsi bəxş edən qəhrəman hərbçilərimizin davamçıları bu gün də var, sabah da olacaqlar.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının ildönümü qeyd edilib








Milli Müdafiə Universitetinin tabeliyində fəliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının ildönümü qeyd edilib.

27 fevral 2025-ci il tarixdə Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 21 illiyi münasibətilə Əlahiddə Ümumqoşun Orduda tədbir təşkil edilib.

Milli Müdafiə Universiteti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və vətənimizin azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Hərbi Liseyin rəisi vəzifəsini icra edən polkovnik Rəşad Əsgərov ilk öncə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülovun təbrik məktublarını tədbir iştirakçılarına çatdırıb. Daha sonra o, Hərbi Liseyin yaradılmasından bu günə qədər keçən bir dövrdə liseyin fəaliyyətindən söz açıb, əldə olunan uğurları diqqətə çatdırıb.

Daha sonra Əlahiddə Ümumqoşun Ordu Komandanı general-mayor Kənan Seyidov çıxış edərək Hərbi Liseyin şəxsi heyətini təbrik edib, onlara fəaliyyətlərində və tədrisdə uğurlar arzulayıb.

Sonra Hərbi Liseyin gündəlik fəaliyyətdə, tədris prosesinin təşkilində, əmək fəaliyyətində fərqlənən pedaqoji heyət, mülki işçilər və kursantlar təltif olunub.

Sonda kursantların ifasında şeirlər, mahnılar səsləndirilib, bədii kompazisiya təqdim olunub. Xatirə şəkillər çəkilib.

(Əvvəli 1-ci səhifədə)

Naxçıvan hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Aqil Axundov dövlətimizin başçısının Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən danışıb. Vurğulayıb ki, Azərbaycan Konstitusiyası ölkənin hüquqi və siyasi sisteminin təməlini təşkil edərək hüquq sisteminin bütövlüyünü və sabitliyini təmin edir.

Naxçıvan Hərbi Kollecinin rəisi polkovnik-leytenant Yaşar Hüseynov hərbi kollecin qısa zamanda böyük uğurlara imza atdığını qeyd edib. Bildirib ki, cari tədris ilində muxtar respublikanın bütün dövlət orqanları, eləcə də media nümayəndələri ilə hərbi kollec arasında əlaqələr qurulub, birgə layihələr icra olunaraq tədbirlər keçirilib.

Sonda Ulu Öndər Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin Konstitusiyamızın qəbulu, suverenliyimizin bərpasına dair tarixi xidmətlərindən bəhs edən qısametrajlı videoçarx nümayiş olunub, xatirə şəkli çəkdirilib.

# Naxçıvan Hərbi Kollecində “Konstitusiya və Suverenlik İli” çərçivəsində tədbirlər təşkil olunub





* * *

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası ilə birgə "Konstitusiya və Suverenlik ili"nə həsr olunmuş "Dövlət suverenliyinin bərpası tarixi zəfərimizdir" mövzusunda tədbir keçirilib.

İlk öncə qonaqlarla birlikdə kollecin kitabxanasında "Konstitusiya və Suverenlik" ilinə həsr olunmuş sərgiyə baxış olub.

Daha sonra Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Hərbi Kollecin İdeoloji iş və mənəvi-psixoloji təminat bölməsinin rəisi mayor Elvin Qurbani, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova, kitabxananın elmi işlər üzrə direktor müavini Yeganə Səfərova və Hərbi Kollecin Kitabxana müdiri Emelya Süleymanova mövzu ilə əlaqədar çıxış ediblər. Məruzəçilər kursantlara konstitusiyanın əhəmiyyəti, suverenliyin bərpası haqqında ətraflı məlumatlardan bəhs ediblər.

Sonda tədbirlə əlaqədar videoçarx nümayiş olunub.







# Vətən müdafiəçiləri yetişdirən məktəb - Heydər Əliyev adına Hərbi Lisey



27 il bundan öncə Naxçıvanda ilk hərbi təhsil ocağının yaradılması haqqında Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncam uzaqgörən bir addım idi. 1998-ci ildən fəaliyyətə başlayan məktəb tez bir zamanda gəncləri ətrafına topladı. Görkəmli dövlət xadimi Heydər Əliyev həmin il Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşür, xeyir-duasını verərək deyir: "Özünü bu peşəyə həsr edən bir Azərbaycan gənci bütün gənclərdən yüksəkdə durur, bütün gənclərdən qiymətlidir. Çünki müstəqil dövlətimiz, müstəqil Azərbaycan yaşamalıdır, inkişaf etməlidir. Onun bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, dünyada məşhur olan və dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi, müstəqil Azərbaycanın özünün də hərbi sərkərdələri olsun. Tam inanıram ki, Azərbaycan gəncləri içərisində yaxın gələcəkdə belə sərkərdələr çıxacaqdır".

Ulu Öndər hələ 70-ci illərdə Bakıda C.Naxçıvanski adına Hərbi Təmayüllü Məktəbi yaradanda da Azərbaycanın müstəqil gələcəyini hədəfləmişdi. Bu gün görürük ki, Dahi Öndərin müəyyənləşdirdiyi uzaqgörən siyasət artıq öz bəhrəsini vermişdir. Bunun ifadəsidir ki, müstəqilliyimizin qorunmasında, habelə milli ordu quruculuğunda həmin məktəbin məzunları müstəsna xidmətlər göstəriblər.

(Ardı 5-ci səhifədə)

# Vətən müdafiəçiləri yetişdirən məktəb - Heydər Əliyev adına Hərbi Lisey





(Əvvəli 4-cü səhifədə)

Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan ehtiyacını ödəmək məqsədilə Ulu Öndərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə yaradılan Naxçıvan filialı çox keçmir ki, özünü doğruldur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə fəaliyyətinin yeni mərhələsinə qədəm qoyan Naxçıvan Hərbi Liseyi yaradıcısı və qurucusu Ulu Öndər Heydər Əliyevin adını daşıyır. Bu gün liseyin 4 minə yaxın məzunu silahlı qüvvələrin bütün birləşmə və bölmələrində öz xidməti vəzifələrini layiqincə yerinə yetirir.

### Liseyin bu günü

Liseydə müasir təhsil standartlarına uyğun hər bir şərait yaradılıb: fənn kabinələri, laboratoriyalar, trenajorlarla təchiz olunmuş idman zalı, tir otağı, zəngin kitab fonduna malik kitabxana, STEAM kabinəsi. İkiillik təhsil müddətində bütün bu imkanlardan yararlanan kursantlara təcrübəli müəllimlər dərs keçirlər. 2005-ci ilin dekabrında dövlət başçısı İlham Əliyev muxtar respublikaya səfəri zamanı hərbi liseydə olub və burada yaradılan şəraiti yüksək qiymətləndirib.

Hərbi liseyin şəhərciyində kursantlar üçün yataqxana, tibb məntəqəsi, futbol meydançası və idman qurğuları istifadədədir. Günün nizam qaydalarına uyğun olaraq fəaliyyət göstərən liseydə yalnız muxtar respublikadan deyil, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alırlar. Kursantlar muxtar respublikada keçirilən tədbirlərdə, idman yarışlarında, rəsm və şeir müsabiqələrində fəal iştirak edirlər. Bunu yataqxananın foyesində sərgilənən müxtəlif mükafatlar, fəxri fərman və medallardan da görmək mümkündür.

Ötən il kursantlardan biri fizika fənni üzrə keçirilən fənn olimpiadasında qızıl medala layiq görülüb. Ümumilikdə, kursantlar liseyə 5 qızıl, 4 gümüş, 25 bürünc medal qazandırıblar.

### Qarabağı azad edənlər

Liseyin ilk buraxılışında 49 kursant məzun olub. Liseyə maraq artdıqca məzun sayı da artıb. Nəticə etibarilə, məktəbin məzunları Azərbaycanın bir çox bölgələrində xidməti fəaliyyətlərini layiqincə yerinə yetiriblər. Təhsil və xidmət illəri gəncləri peşəkar zabit kimi formalaşdırıb. Düşmənin cəbhə boyu törətdiyi təxribatların qarşısının alınmasında, Aprel döyüşlərində cəsarət göstərən məzunlar sırasında şəhidlik məqamına yüksələnlər də var. Örnək göstərilən məzunlar yetişən kursantlar üçün vətənpərvərlik məktəbi olub. Bu məktəbi bitirənlər Qarabağı azad edənlərin cərgəsində oldular...

Hərbi liseyi seçən gənclər üçün ən ümdə amal Qarabağın düşmən işğalından azad edilməsi idi. Bu məqsədlə ömürlərini hərb peşəsinə bağlayanlar üçün qarşıda bir hədəf olub: torpaqlarımızın azad edilməsi, ölkəmizin suverenliyinin təmin edilməsi. Bu ali məqsəd uğrunda təhsil alan, düşmən qarşısında səngər kimi dayanan oğullar üçün çətinlik, yarılmayan səd anlayışı olmayıb. Onlar Xocalının qisasını almaq, yarımçıq qalan arzuları gerçəkləşdirmək, öz yurd-yuvasından didərgin düşən insanları torpaqları ilə qovuşdurmaq üçün güclərinə güc qatıblar. Və nəhayət, o gün yetişib. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində şücaət göstərən oğullar sırasında Naxçıvan Hərbi Liseyinin məzunları - qəhrəmanları da olub. Onlardan Vüsal Vəliyev, Zülfü Rzayev, Allahyar Telmanlı, Məmməd Zamanlı, Yaqub Nəcəfov, Raqib Hüseynov, Amin Gülməmmədov və onlarla zabit şəhidlik məqamına yüksəldi. Yaralanaraq sağlamlığını itirənlər də oldu. 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə bütöv Vətənimizə qovuşduq, suverenliyimiz bərpa edildi. 30 ilə yaxın torpaq, yurd həsrətimizə son qoyuldu. Bu zəfərin qazanılmasında Hərbi liseyin məzunlarının xidməti danılmazdır və onların adları tarixə qızıl hərflərlə yazıldı. Ulu Öndərin etimad göstərdiyi, yüksək qiymətləndirdiyi gənclər ən ali mərtəbəyə - şəhidlik zirvəsinə ucaldılar, gələcək nəsillərə örnək oldular. Liseyin məzunlarından 4 nəfər - mayor Şahin Hüseynquliyev, kapitan Qəzənfər Bağırlı, kapitan Veysəl Müsibov (ölümündən sonra), baş leytenant Cavid Behbudov "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Polkovnik-leytenant Rəsul Süleymanov, kapitan Şamil Babayev (ölümündən sonra) "Zəfər" ordeni, 11 nəfər məzun isə "Qarabağ" ordeni ilə təltif olunub. Bu, liseyin ən ali uğur göstəriciləridir. Liseyin kursantları 2020-ci ildə Bakıda keçirilən Zəfər paradında da iştirak etdilər.



### "Hər zaman döyüşə səfərbərik biz"

Naxçıvan şəhərinin mərkəzi küçələrindən birində yerləşən Heydər Əliyev adına Hərbi Liseyin yanından ötənlər kursantların gur səslə oxuduğu və addım səsləri ilə tamamladığı mahnını yəqin ki, eşitmiş olurlar:

*Başımız üstündə üçrəngli bayraq,*
*Hər zaman döyüşə səfərbərik biz.*

Döyüş meydanında sözünü deyənlər, davamçılarına örnək olanlar, biz sizə güvəndik. Ulu Öndərin əminliklə bəslədiyi etimadı doğrultdunuz, Qarabağın azadlığına qovuşmasında pay sahibi oldunuz. Əhsən sizə! Bu gün sizin yolunuzu davam etdirənlərə - Hərbi liseyin kursantlarına da eyni etimadı bəsləyirik.

Qalib ordumuzun sıralarında sizi görmək əzmi ilə, irəli!

**Ruhiyyə RƏSULOVA**
**"Şərq qapısı" qəzetinin məsul katibi**



# Şair-publisist Rəşid Faxralının 70 illiyi qeyd olunub





Fevralın 28-də Azərbaycan Yazıçılar Birliyində Qarabağ müharibəsi veteranı, şair-publisist, Əməkdar jurnalist, ehtiyatda olan mayor Rəşid Faxralının 70 illiyi münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən "Borçalı" İctimai Birliyinin sədri Dəyanət Osmanlı Rəşid Faxralının yaradıcılığına nəzər salaraq onun poeziyasının və publisistik irsinin gücündən danışıb. O qeyd edib ki, Rəşid Faxralının qələmi təkcə söz sənətinin incəliklərini deyil, həm də vətən sevgisini özündə daşıyan bir xəzinədir. O, öz yaradıcılığı ilə daim haqqın, ədalətin müdafiəsindədir.

Yazıçılar Birliyinin katibi, tanınmış yazıçı Elçin Hüseynbəyli isə Rəşid Faxralının həyat yolunun çoxşaxəli olduğunu deyib: "O, həmişə diqqət mərkəzində olan qələm adamlarındandır. Simasında xoşgörü, səmimiyyət var. O, həyatını yalnız yazmağa yox, həm də mübarizəyə həsr edib. Onun yazıları təkcə poeziya deyil, həm də mübariz əsgər ruhunu yaşadır".

Həzi Aslanov irsinin araşdırmaçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani yubilyarın vətənpərvərlik ruhunu xüsusi vurğulayıb. "Torpaq üzərində gəzənin deyil, onu qəlbində daşıyanındır. Rəşid Faxralı məhz belə insanlardandır. O, əsgərlərimizi müharibədən əvvəl döyüşə səsləyirdisə, müharibədən sonra da bu torpağı qorumağa çağırırdı. Onun yazıları xəncəri qınından çıxaran yazılardır. O inanırdı ki, torpaqlarımızı yalnız döyüşlə azad edə bilərik və bu gün onun dedikləri tarixə həqiqət kimi yazılıb", - deyə o əlavə edib.

Tədbirdə digər çıxışçılar da Rəşid Faxralı ilə bağlı fikirlərini bölüşüblər, onun xarakterindən, vətənə bağlılığından, qətiyyətli ruhundan söhbət açıblar.

Sonda Rəşid Faxralıya "Borçalı" İctimai Birliyinin fəxri diplomu təqdim olunub.

# Xocalının göylərinə sər ürəyimi

Dünyanın heç bir xalqı heç zaman müharibə arzulamayıb. Biz torpaqlarımızın işğaldan azad olması üçün Ali Baş Komandanın döyüş əmrinin təşnəsiydik. Hərbi xidmətə gedənlər də bu niyyətlə gedirdilər, tərxis edilənlər də bu niyyətə görə təəssüflənirdilər. İkinci Qarabağ müharibəsinə kimi mənim də düşüncələrimdə döyüşlər gedirdi, güllələr açılırdı, mərmilər partlayırdı. Azərbaycan əsgəri döyüş növbətçiliyində uca ruhların səsini eşidirdi: Torpaqların yaraları qaysaqlayacaq. Siz döyüşlərdə qətiyyətlə döyüşün, işğalı kürüyün! Ön xətdə əsgərlərlə söhbətləşəndə bu xatırlatma da düşüncələrimizin üfüqünə dönürdü...

İkinci Qarabağ müharibəsindən əvvəl bir ana hərbi xidmətə yola saldığı oğluna demişdi: "Vətən olmayandan sonra sən nəyə lazımsan, biz nəyə lazımıq. Get. Sərkərdəmiz əmr edəndə sən də kişi kimi döyüş...". Həmin vaxtlarda varlığı dosta nur, düşmənə gor olan Azərbaycanda bütün anaların öyüdü belə idi. Əsgərlər bu öyüdü Hərbi Andın mənəvi davamı bilirdilər, döyüşləri gözləyə-gözləyə ermənilərin Azərbaycanda törətdiyi faciələri də unutmurdular...

Bir xatirə: Xocalı faciəsinə yazdığım elegiyada haray da vardı, qəhər də, yaraların qaysaqlayacağına ümid də, işğaldan qurtuluşa inam da. Beyləqanda, düşmənlə təmas xəttinin "on-on beş addımlığında" "Əsgər ürəyindən başlanır Vətən!" deyirdik. Şeirlər səslənirdi, səslər nəqarətləşirdi. Atası Xocalıdan olan Samir Qurbanov mənim "Xocalım, ay Xocalım!" şeirini demişdi. Səsində - qəhər, kirpiklərində - iki damla göz yaşı...

Onda Samirin qəhəri qəhərimiz olmuşdu:

- Babam, nənəm, dayım Xocalıda qətlə yetiriliblər. Onda atamın on beş yaşı olub. Xocalılıların Xocalıdan necə qaçdığını, yolda-izdə, çöldə-düzdə necə öldürüldüyünü həmişə qəhərlə, ağrı-acılarla xatırlayırdı. Döyüşlər başlayanda Xocalı uğrunda döyüşmək istərdim. Xocalını işğaldan azad edənlərin sırasında olmasam, əzizlərimin ruhu məni bağışlamaz. Niyyətimi komandirimiz də bilir, - Samir belə demişdi. Onda əsgərlərin hamısının qətiyyəti Samirə ad olan günümüzün xeyir-duasına dönmüşdü: "Xocalı döyüşlərində hamımız sənin yanında olacağıq!". Yeddi il əvvəlin bu duyğusal kəlməşməsi əsgər Sənan Bayramovu da duyğulandırmışdı.

- Xocalıda xidmət edəcəyimizi biləndə təhsil aldığım Azərbaycan Texniki Universitetində Xocalı faciəsinin 30 illiyinə həsr olunmuş tədbiri xatırladım. Faciədən danışılmışdı, faciənin ağrılarını sənədli filmdə biz də yaşamışdıq. Professorumuz bizə xitabən demişdi: Siz işğaldan azad edilmiş Xocalıda xidmət edəcəksiniz. Xocalıda hərbi xidmətin ilk gecəsi heç birimizin gözünə yuxu getmirdi. Bu, Azərbaycan əsgərinin qüdrətinin qüruruna görə idi. İndi işğaldan azad edilmiş Xocalıda xidmət etməyin qürurunu mən də yaşayıram. Qazaxdan olsam da, özümü həm də xocalılı hesab edirəm. Əsgərlərin hamısı belə düşünür...

O vaxtdan əsgər Samir Qurbanova vəfa borcumu Xocalıda qaytarmağı əhd etmişdim. Özü orada olmayacaqdı, ruhum ruhuna təzə şeir deyəcəkdi:

Ümidini illər əymiş baxışlar döyüb
bir zamanlar daşlar döyən Kür ürəyimi.
O zamandan bu zamana yağışlar döyüb,
Xocalıda bir daş üstə sər ürəyimi...

Xocalıdaydım. Gözüm tutunca boylanırdım. 1990-cı ilin martında da yaxınlara-uzaqlara belə baxmışdım. Onda şəhərləşən Xocalı bina-bina böyüyürdü, düşmənin gözlərini tökə-tökə böyüyürdü. Xankəndidən baxanlar Xocalıda düyünlənən yumruqlar görürdü. Düşmən yumruğu düyünlənənlərin qətiyyətindən çəkinirdi. Bilirdi ki, Xocalıya yaxın düşə bilməyəcək. Nə oldu bəs?




Ermənilər haradan güc aldılar, necə cəsarətləndilər? O nəhs günə, nəhs gecəyə sovet imperiyasının 366-cı alayının yedəyində gəldilər. Hər yan qar idi, hər yan tar idi. Yollar zavallı xocalıların ayaqları altından qaçırdı...

33 il əvvəl ermənilərin Xocalıya gəldiyi səmtdəydik. Mənə elə gəlirdi ki, həmin gecə düşmənə atılan güllələrin səsi 2023-cü ilin sentyabrında atılan güllələrin səsinə sarılıb. 33 il əvvəl döyüşən Xocalının da, döyüşün içindən sıyrılıb Şelliyə, Naxçıvanikə, Əsgərana, Ağdama, Qarqara tərəf yol alanların da, qurtuluşa can atanların da ruhunun səsi oktyabrın 15-nə kimi o səslərin içində çırpınıb, titrəyib, uçunub. Göylərin yağışına-qarına, əsən yelinə, coşan selinə qarışıb...

Bir xatirə: 1990-cı ilin martında Xocalını şəhərləşdirən fəhlələrlə kəlmələşmişdik. On altı-on yeddi yaşı olan oğlan ayaq saxlamışdı. Salam-əleykdən sonra bayaq söhbətləşdiyimiz xocalılı kişi oğlandan hara getdiyini soruşmuşdu. Yeniyetmə:

- Posta gedirəm, Kərim dayı. Sursat, bir az da yeyəcəklər aparıram, - demişdi.

Kərim kişinin əli yeniyetmənin çiyninə enmişdi:

- Bundan da cavanları yollardadı, döyüşənlərin yanına can atırlar. Xocalılar Xocalını qoruyur, ay oğul, hökumət də qorusa, Xocalıya zaval yoxdu...

Xocalı tikilirdi...
Xocalı böyüyürdü...

Orta yaşlı bir kişinin söhbətinin cazibəsindəydik:

- İlin əvvəlində kiçik qardaşımla Xocalıya gəldik. Mən - tikintiyə, qardaşım - orduya. O elə əsgərdi, mən belə əsgər. Bir şəhərdəyik, iyirmi gündən çoxdu bir-birimizi görmürük. Soraqçılarımız kəndin posta gedib-gələn yeniyetmələridi. Xocalı tikiləcək, böyüyəcək, tətik sıxanların sayı artacaq.

Posta gedən əsgərlər yanımıza çatınca ayaq saxlayıb salamlaşmışdılar. Biri binanın bünövrəsinə bir daş atmışdı, "Bu daşı iş avandlığı daşı bilək, ustalara "Yorulmayasınız!" deyək. Dönüşümdə bu binanın otaqlarından birinin qapısını döyməyə niyyətliyəm, öz evim kimi...", - demişdi. Səmimi ərk səmimi ovqat yaratmışdı. Kərim kişi gülümsünmüşdü, "Tofiqin əsgəridi...", - demişdi; fevralın 26-da aeroport ətrafında döyüşdə həmin əsgər də şəhid olmuşdu...

Ermənilər həmin gecə Tofiqin əsgərinin bünövrəsinə iş avandlığı daşı atdığı binanı da dağıtmışdılar; o binanın mənzillərinin qapısı döyülmədi...

33 il əvvəl mən gördüyüm Xocalı yoxdu. Əkbər müəllimlə məhəllə-məhəllə dolaşdığımız, yollar seçib yol aşdığımız Xocalı deyil bu Xocalı. 33 il əvvəlin bir gecəsinin çəkilməz dərdi, ağrı-acısı bina-bina böyüyən, böyüyə-böyüyə şəhərləşən bu cavan şəhərin ürəyinə yük olmuşdu. Xocalı mənəvi sıxıntıdan, illər keçdikcə sükutu da qəhərə dönən ağrı-acılardan, xocalılığını Xocalıdan uzaqda yaşadanların fəryadından 2023-cü ilin 15 oktyabrında qurtardı. Bir qərinədən sonra göy üzü bayrağımızın titrəyişiylə süsləndi...

33 il əvvəl Şelliyə, Naxçıvanikə, Qarqara, Ağdama aparan yollara baxıram. 33 il əvvəlki yolların eni daralıb elə bil, boyu uzanıb. Tarix 33 il əvvəl həmin yollardan sıyrılıb əsir düşməmək üçün canına qıyanların, donmuş körpəsini Ağdamacan qucağında aparan gəlinin, ayaqqabıları yaralı ağsaqqala verib özü corabda qalan yeniyetmənin, ... harayını unudubmu, görəsən?...

Ermənistan işğal etdiyi əraziləri öz ərazisi etmək niyyətiylə Xocalıda da hərbi hissə yaradıbmış. Azərbaycan əsgəri ermənilərin yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi mühəndis-istehkam sədlərini necə dağıtmışdısa, bu niyyətini də elə çiliklədi. İndi Xocalıda Azərbaycan Ordusunun əsgəri Vətən keşiyində dayanır. Xocalının yaxasından uzanan yollardan biri Xankəndiyə aparır. Mayor Fuad Rəhimov demişdi ki, əsgərlərdən biri bu yolun qırağında bir əsgər çəkməsinə rast gəlib. Erməni döyüşçüsü döyüşdən bir ayağı yalın qaçıb. Tarixin bu ironiyası qüdrətə görədi: Xocalıya faciə törətməyə gələnlər necə gəlmişdilər, 29 il sonra ölümdən qaçanlar necə qaçıblar! Bu, gerçəkliyin fəlsəfəsidi: Kələklə gələnləri küləklər aparır...

33 il əvvəl hərbçilər Xocalıda Xocalını qoruyurdular. İndi Xocalıda Azərbaycanı qoruyurlar!..

Kapitan Hümbət Cəfərov qarşı təpəliyi göstərmişdi. Təpəliyin bu üzündən o üzünə aşan yolun ağlığına, bir qədər enişdə sarılığına heyrətlənmişdik. Bu ağlığın erməniliklə bağlılığı yoxdu, ermənilik hara, ağlıq hara? Yüksəklik dağlıq massivdi, dağ süxurları ağappaqdı. Bu da Azərbaycan torpağının möcüzəsidi. Bu yol üç ilin yoludu. İkinci Qarabağ müharibəsindən sonra Qarabağda ermənilik mərkəzi olan Xankəndiyə belə gediş-gəliş yaradılıbmış. Çox gedib-gələ bilməyiblər. Ermənilərin bu yolla son təması 2023-cü il sentyabrın 20-də olub; bu ilin sentyabr döyüşlərində onların hoyuna bu yol çatıb. 33 il əvvəl tankla, topla, silahlarla gəldikləri yollarla da qaçıb canlarını qurtarmışdılar, bu yolla da qaçmışdılar. Ancaq çoxusu silahını götürməyə macal tapmamışdı. Macal tapsaydılar, Xocalıda daş üstə daş qalmazdı - ermənilik xisləti belədi...

33 il əvvəl xocalılılar, yerli müdafiə batalyonunun döyüşçüləri Xocalını Xocalının hüdudlarında müdafiə edirdi; mövqelər də, səngərlər də Xocalının hüdudlarındaydı. Xocalıdan ayrılan yolların əksəriyyəti mövqelərdə bitirdi. Çoxusu müharibə başlayana kimi cığır olmuşdu. İşğal müddətində düşmənin bu yollara ayağı dəyməyib deyə onlar da görünməzləşiblər. Zamanında Xocalını müdafiə edənlər, xocalılılar yaz-payızdısa bu yolların şehini, yaydısa tozunu, qışdısa qarını 33 ilin həsrətinə ödənc zərrəsinə əvəz bilib kirpikləriylə siləcəklər...

Üzü meşələrə sarı dayanmışam. Təbiəti sevən könlümdə bir sızıltı hiss edirəm. Meşələr mehman sevəndi, dara düşənə sığınacaq verəndi, təntiyənə hayan olandı. 33 il əvvəlin faciəsinə görə günahsız meşələri, meşələrin günahsız ağaclarını qınayıram: körpəsini sinəsinə basan, səs salmasın deyə əlləriylə ağzını tutan, nəfəssizlikdən keçinən o körpəni də, anasını da daldalaya bilmədiniz. Yaralı atasını güllələrdən gizlətmək istəyən yeniyetmə qıza koğuşunuzda yer vermədiniz, çör-çöpünüz, düşmənin ayaqlarına dolaşmadı ki, qaçanlar uzaqlaşa bilsinlər, ... Mənə elə gəlir ki, sükut içində ruhların pıçıltısını eşidəcəm: Azərbaycan əsgəri Xocalını da işğaldan azad etdi, qınadığın ağacları da. O meşədə bir palıda bir baxışlıq sözüm var: 33 il əvvəlin qarlı qış günü gözlədiyin ağsaqqalı ermənilər sənə çata-çatda öldürmüşdülər, Dədə Palıd...

Niyyətinin şəhərindən İkinci Qarabağ müharibəsindən əvvəl atası Xocalıdan olan əsgər Samir Qurbanova ruhən deyirəm ki,

Elin - elim, odun - odum...
Cavan qardaşım,
Anaların diləyinə hör ürəyimi.
Şimşək çaxdı...
Yağış yağdı...
Açıldı səhər,
Xocalının göylərində gör ürəyimi!..

Bizi yayın son ayının həzin mehi uğurlayır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

1992-ci ilin 26 fevralı heç zaman unudulmayacaq. Fevralın 25-i gecəsi Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının fəal iştirakı ilə Xocalı şəhərini yerləyeksan etdi. Bu faciə nəticəsində 613 nəfər həlak oldu, 487 nəfər ağır yaralandı, 1275 nəfər əsir götürüldü, 150 nəfər itkin düşdü. Qəddarlıqla həyata keçirilmiş Xocalı soyqırımında amansızcasına qətlə yetirilənlərin arasında qadınlar, uşaqlar və yaşlı insanlar var idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəldilmiş ən qəddar soyqırımı adlandıraraq deyirdi: "Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".

Xocalı faciəsində yüzlərlə tarixi abidələrimiz erməni vandalizmi nəticəsində məhv oldu. Belə ki, şəhərdə sosial-məişət obyektləri, fərdi yaşayış evləri, türbələr, günbəzlər dağıdıldı.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis Xocalı Soyqırımı Günü haqqında qərar qəbul etdi. 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədilə hər il fevralın 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi dərin ehtiramla yad edilir.

XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən hələ də soyqırımı kimi tanınması üçün beynəlxalq səviyyədə mübarizə aparılır. Bu faciə təkcə Azərbaycanın deyil, bütün bəşəriyyətin faciəsidir.

Ulu Öndər Heydər Əliyev Xocalı soyqırımının onilliyinə həsr edilmiş anım mərasimində Azərbaycan xalqına müraciətində demişdi: "Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında beynəlxalq ictimaiyyəti bu faciəni tanımağa çağırır. Ermənistanın törətdiyi bu cinayətin cəzasız qalmayacağını hər zaman vurğulayır. Dövlət başçısının uğurlu siyasəti nəticəsində artıq dünyanın bir neçə ölkəsi Xocalı faciəsini soyqırımı kimi tanımışdır.

Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə tanıdılması istiqamətində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət" kampaniyası mühüm işlər görməkdədir. Hər il fevralın 26-da Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində ucaldılan "Ana harayı" abidəsini ziyarət edir və abidənin önünə əklillər qoyur.

Xocalı faciəsi heç zaman unudulmayacaq!

**Kifayət ƏLİYEVA**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# "Ötən ildə qazanılan uğurların təhlili gələcək planların və yeni hədəflərin dəqiqləşdirilməsi üçün vacib faktordur"

Fevralın 24-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2024-cü ilin yekunlarına dair nazirliyin kollegiya iclası keçirildi. İclasda ötən ilə yekun vuruldu, cari ildə qarşıda duran vəzifələr iclas iştirakçılarının diqqətinə çatdırıldı. Kollegiya iclasının əsas məqsədi də odur ki, ordumuz bundan sonra da xalqımızın və Ali Baş Komandanın etimadını doğruldacaq.

Biz də öz növbəmizdə açıq informasiya mənbələrinin təhlili əsasında qərara aldıq ki, ötən ildə ordumuzun qazandığı nailiyyətlərlə bağlı fikirlərimizi oxucularımızla bölüşək. Yola saldığımız 2024-cü ili də əvvəlki illərdə olduğu kimi, Azərbaycan Ordusu bir çox uğur və yeniliklərlə başa vurdu. Ötən ilə nəzər saldıqda aydın görürük ki, yola saldığımız il ordu quruculuğu istiqamətində əhəmiyyətli uğurlarla bol oldu.

Sevindirici haldır ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də il ərzindəki çıxışlarında ordumuzun fəaliyyətini yüksək qiymətləndirdi, islahatların davam edəcəyini bəyan etdi və Azərbaycan Ordusu qarşısında mühüm tapşırıqlar qoydu. Dövlətimizin başçısının ordumuza verdiyi yüksək qiymət, səsləndirdiyi fikirlər şəxsi heyət tərəfindən ruh yüksəkliyi ilə qarşılandı və hərbi qulluqçularımızı uğurlar qazanmağa ruhlandırdı.

2024-cü ildə əldə edilən uğurları sadalamazdan əvvəl xüsusi olaraq bildirmək istərdik ki, qeyd olunan məqamlar yalnız açıq mənbələrdən əldə edilmiş və Müdafiə Nazirliyi tərəfindən ictimailəşdirilən məlumatların təhlili əsasında qələmə alınıb.

İlk olaraq qeyd etmək istərdik ki, heç şübhəsiz, 2024-cü ildə əldə etdiyimiz uğurların təməlində Müzəffər Ali Baş Komandanın prioritet elan etdiyi, ordu quruculuğu sahəsinə sərgilədiyi diqqət və qayğı, həmçinin dövlətimizin iqtisadi qüdrəti dayanır. Heç kimə sirr deyil ki, hər bir ölkənin hərbi qüdrəti onun iqtisadi gücünün aynasıdır. Bunu da ordumuzun şəxsi heyəti gündəlik xidmətlərində daim hiss edir. Sözün həqiqi mənasında, respublikamızda mövcud olan dayanıqlı iqtisadi inkişaf bütün sahələrə, eyni zamanda, ordu quruculuğuna da öz müsbət təsirini göstərir.

Qürur doğuran məqamdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişlərinə əsasən müasir ordu quruculuğunun daha da təkmilləşdirilməsi istiqamətində islahatlar il ərzində davam etdirilib. Azərbaycan Ordusu 2024-cü ildə ölkəmizin müdafiəsi və təhlükəsizliyinin təmin edilməsi, şərti dövlət sərhədində döyüş növbətçiliyinin təşkili və icrası ilə bağlı qarşısında duran tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib. Ötən ildə ordumuzun xidməti-döyüş fəaliyyətinin düzgün təşkili sayəsində nəzərdə tutulmuş bütün hədəflərə çatmaq təmin olunub və yetərincə nailiyyətlər əldə edilib.

Ölkəmizin müdafiəsinin gücləndirilməsi məqsədilə Vətən müharibəsi və antiterror əməliyyatından sonra yaranmış vəziyyət nəzərə alınmaqla müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirlikdə il ərzində keçirilən xidməti müşavirələrdə döyüşə hazırolma və səfərbəretmə planları dəqiqləşdirilib, direktiv sənədlərin yenilənməsi, yeni qərarların hazırlanması, qoşun və qüvvə növlərinə, birlik, birləşmə və hissələrə yeni döyüş tapşırıqlarının çatdırılması təmin edilib. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası naminə həyata keçirilmiş döyüş əməliyyatları bitdikdən sonra regionda yaranmış yeni vəziyyət və baş vermiş dəyişikliklərə uyğun olaraq qoşunların imkan və qabiliyyətlərinin artırılması məqsədilə planlı tədbirlər həyata keçirilib.

Eyni zamanda, ordumuzun arsenalına yeni silah sistemlərinin daxil edilməsi, onların istismarının və döyüş tətbiqinin öyrənilməsi üzrə müvafiq fəaliyyətlər icra edilib. Bölmələrin döyüş hazırlığının və qabiliyyətinin, şəxsi heyətin peşəkarlığının, bilik və bacarıqlarının yüksəldilməsini təmin edən praktiki məşq və təlimlərin intensivliyi artırılıb.

Təhlillər göstərir ki, ötən il ərzində hərbi qulluqçularımız 20 ikitərəfli və çoxtərəfli təlimdə iştirak ediblər. Bu təlimlərdən üçü ölkəmizdə təşkil edilərək keçirilib. Praktiki məşq və dərslərin intensivliyi, eləcə də müxtəlif növ hərbi təlimlər sayəsində uzlaşma şəraitində fəaliyyət, qarşılıqlı təcrübə mübadiləsi həyata keçirilib. Müxtəlif qoşun növlərinin cəlb olunduğu beynəlxalq və müştərək təlimlərin keçirilməsi ilə hərbi qulluqçuların peşəkarlıq səviyyəsi daha da yüksəldilib.

Bütün bunlarla yanaşı, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, onların xidmət və sosial məişət şəraitinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması, kollektivlərdə intizam qaydalarına yüksək səviyyədə əməl edilməsi məqsədilə kompleks tədbirlər icra edilib, milli-mənəvi dəyərlərimizi özündə əks etdirən bir çox hərbi vətənpərvərlik tədbirləri keçirilib.

Geridə qoyduğumuz il ərzində səfərbərlik hazırlığına diqqət daha da artırılmış, səfərbərlik ehtiyatlarının peşəkarlığının yüksəldilməsi istiqamətində ciddi addımlar atılmışdır. Ötən il ərzində müxtəlif ixtisaslı hərbi vəzifəlilər toplanışlara cəlb edilmiş, məşğələ və praktiki məşqlərin gedişində onların ixtisas üzrə bilik və bacarıqlarının artırılması ilə yanaşı, silahlanmaya yeni qəbul edilmiş silah və texnikadan istifadə qaydaları öyrədilmişdir. Əməliyyat və döyüş hazırlığı, mühəndis və digər xidmətlər, eləcə də qoşun xidmətinin təşkili ilə bağlı nəzərdə tutulmuş bütün tədbirlər plana uyğun olaraq icra olunmuşdur.

İşğaldan azad edilmiş ərazilərimizdə 2024-cü il ərzində aparılan bərpa-quruculuq işlərində də ordumuz xeyli uğurlar əldə etmişdir. Mühəndis tədbirləri, yeni yolların çəkilməsi, digər hərbi infrastrukturların yaradılması ilə bağlı aparılan işlər davam etmiş, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi istiqamətində mühəndis xidməti üzrə tapşırıqlar yerinə yetirilmişdir. Xüsusilə də döyüş mövqelərinin mühəndis-istehkam cəhətdən hazırlanması, təminat yollarının fasiləsiz olaraq işlək vəziyyətdə saxlanılması müdafiənin dayanıqlığının, bölmələrin atəş və manevr imkanlarının əhəmiyyətli dərəcədə artdırmışdır.

İşğaldan azad edilmiş ərazilərimizdə dislokasiya olunan hərbi hissələrdə quruculuq işlərinin davam etdirilməsi sayəsində yeni hərbi infrastruktur obyektləri inşa edilmiş, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Ötən il ərzində qışa hazırlıq məqsədilə yüksək dağlıq ərazilərdə yerləşən döyüş mövqelərində ərzaq, əşya, yanacaq, odun ehtiyatı normalara uyğun olaraq təmin edilmiş, şəxsi heyətin mövsümə uyğun geyimlə tam təmin edilməsi və ümumilikdə maddi-texniki təminatı üzrə qarşıya qoyulan məqsədlərə tam həcmdə nail olunmuşdur.

2024-cü il ərzində hərbi təhsil sistemi, şəxsi heyətin komplektləşdirilməsi, ştatların optimallaşdırılması, eləcə də bir sıra yeniliklərin tətbiq edilməsi məqsədilə struktur dəyişikliyi həyata keçirilmişdir. Belə ki, qarşıda duran vəzifələrin icrasını daha səmərəli təşkil etmək məqsədilə idarəetmə orqanlarının, təşkilat və müəssisələrin təşkilat-ştat strukturunun təkmilləşdirilməsi istiqamətində davam edən islahatlar nəticəsində müasir dövrün tələblərinə uyğun olaraq bir sıra yeni idarə və xidmət sahələri yaradılmışdır.

Ötən ilin uğurlu layihələrindən biri də Bakı, Gəncə, Naxçıvan Hərbi Kolleclərinin və intellektual qabiliyyətli bölmələrin yaradılmasını qeyd etmək olar. 2024-cü il ərzində hərbi akademik təhsil sisteminin yenidən formalaşdırılması, qoşunların peşəkar kadrlarla komplektləşdirilməsi keyfiyyətini yüksəldilməsi məqsədilə Milli Müdafiə Universitetində hərbi qulluqçular üçün bir neçə yeni kurslar təsis edilmişdir. Heydər Əliyev adına Hərbi İnstitutda hərbi uçot ixtisasları ilə ali təhsil proqramları arasında uyğunluğun təmin edilməsi, habelə qəbulla bağlı əhatə dairəsinin genişləndirilməsi məqsədilə qəbula 2-ci və 3-cü ixtisas qrupları üzrə bir sıra ixtisaslar əlavə edilmişdir. Xüsusi təyinatlı təhsil müəssisələrinə abituriyentlərin müraciətlərinin asanlaşdırılması, əlçatanlığın təmin olunması məqsədilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə birgə ölkəmizin müxtəlif bölgələrində "Sənəd qəbulu mərkəzləri" yaradılmışdır.

Dövlətimizin başçısının müvafiq sərəncamlarına uyğun olaraq, hərbi təhsil sahəsində cəlbediciliyin artırılması istiqamətində görülən tədbirlər, o cümlədən respublikamızın 13 şəhərində yaradılmış 17 mərkəz vasitəsilə aparılan maarifləndirmə işləri nəticəsində Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə müraciətlərin sayı əhəmiyyətli dərəcədə artmışdır. Bu da yüksək intellektə və müsbət keyfiyyətlərə malik, daha bilikli namizədlərin seçilməsinə, kadr ehtiyatlarının yaradılmasında kəmiyyət və keyfiyyət göstəricilərinin artırılmasına geniş imkan yaratmışdır.

Geridə qoyduğumuz il ərzində beynəlxalq hərbi əməkdaşlıq sahəsində də qarşıya qoyulmuş məqsədlərə nail olunmuş, uğurlar əldə edilmişdir. Hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil sahəsində beynəlxalq əməkdaşlığımızın inkişafı və genişləndirilməsi, işgüzar görüş və müzakirələrin keçirilməsi regionda dayanıqlı sülhə və təhlükəsizliyə böyük töhfə vermişdir.

2024-cü il ərzində Müdafiə Nazirliyində keçirilən xidməti müşavirələrdə döyüş növbətçiliyinin təşkili, təhlükəsizlik qaydalarının daim diqqət mərkəzində saxlanılması, ayıq-sayıqlığın təmin olunması və qarşı tərəfin fəaliyyətinin fasiləsiz müşahidə edilməsi, nəzarətin daha da gücləndirilməsinə dair müvafiq tapşırıqlar verilmiş və icrası tam təmin edilmişdir.

Əvvəlki illər ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində həyata keçirilən islahatları, atılan addımları, həyata keçirilən işləri gördükcə daima qürur hissi keçiririk. Fəxr edirik ki, ötən illərin ən uğurlu göstəricisi torpaqlarımızın işğaldan azad edilməsi naminə həyata keçirilən döyüş əməliyyatlarında qazandığımız qələbələrimizdir. Qeyd etdiyimiz qələbələr sayəsində ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam təmin edilmiş, konstitusiya quruluşu bütün ölkə ərazisində bərqərar olmuşdur. Əminik ki, Şanlı Zəfərimizdən, qazandığı uğurlardan ruhlanan Azərbaycan Ordusu bu gün də Vətənimizin müdafiəsində ayıq-sayıq dayanır və istənilən əmri yerinə yetirməyə hazır və qadirdir.

İnanırıq ki, 2025-ci ildə də Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı, dövlətimizin iqtisadi qüdrətin daha da artması, eyni zamanda, ordu quruculuğunda həyata keçirilən islahatlar nəticəsində qoşunların döyüş hazırlığı və şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, bölmələrin döyüş qabiliyyətinin daha da artırılması və digər xidmət sahələrində Azərbaycan Ordusu yeni-yeni uğurlara imza ataraq xalqımızın etimadını doğruldacaq, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin qaranı olacaqdır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu",**
**İsa İSMAYILOV**
**hərbi jurnalist**

*Əsgərin tribunası*

# "Xidmətimiz Vətən üçündür"



Vətən müharibəsi başlayanda mən məktəbdə oxuyurdum. Dostlarımla birlikdə döyüşçülərimizin qazandığı qələbələrin sevincini biz də yaşayırdıq. Noyabrın 8-də Şuşa işğaldan azad ediləndə kəndimizdə heç kim evinə qapanmadı, hamı yoldaydı, hamı bir-birini təbrik edirdi. Uşaqlar da böyüklərə qarışmışdılar. Səhəri gün müəllimimiz dedi ki, o gecə hər yerdə belə olub. On illiklərdən sonra işğaldan azad edilmiş Şuşada Azərbaycan bayrağının dalğalandırılmasına böyüklər Zəfərin nə olduğunu dərk edərək sevinirdilər, uşaqlar müharibə qurtardığına görə. O gecə neçə-neçə ananın qəhərini üstələyən sevincinin hönkürtüsü də eşidilmişdi: "Daha şəhidlərimiz olmayacaq...". O gecə ordumuzun qazandığı qələbə hamının üreyini dağa döndərmişdi. Böyüklər də uşaqtək sevinirdilər...

Tarixi Zəfər qazandıq, torpaqlarımız işğaldan azad olundu. Ordumuz tarixi ədaləti bərpa etdi...

Bu gün əsgərəm. Biz də hərbi xidmətdə Nizamnamələrin tələblərini öyrənmişik, bizə təhkim olunmuş silahların taktiki-texniki xüsusiyyətlərini mənimsəmişik. Təlimlərdə də fəal iştirak edirik. Komandirimiz deyir ki, təlimlər öyrəndiklərimizin təkmilləşdirilməsidir. Hərbi biliklərimiz təkmilləşdikcə özümüzü daha güclü əsgər hesab edirik.

Hərbi xidmət bizə Vətəni daha dərin sevgilərlə sevməyin gərəkliyini öyrədir, hərbi biliklər verir, əsgər dostluqları qazandırır, hər birimizi mətinləşdirir. Komandirimiz İkinci Qarabağ müharibəsində yaralanmış döyüşçü dostunu döyüşdən çıxardanda şəhid olan döyüşçülərdən danışmışdı. Hərbi xidmətdə qazandığımız dostluğu həmişə məsuliyyətlə yaşadacağıq.

Xidmətimiz Vətən üçündür. Biz hərbi xidmətdən tərxis edildikdən sonra mülki həyatda əsl vətəndaş olacağıq, həmişə Vətən naminə əsgəri məsuliyyətlə işləyəcəyik, əsgəri məsuliyyətlə yaşayacağıq. Biz də böyük qürurla deyəcəyik ki, hərbi xidmət bizi əsl vətəndaş kimi formalaşdırdı.

**Əsgər**
**Faiq SADIQOV**
**"N" hərbi hissəsi**

# Komandamız Azərbaycan Basketbol Liqasında növbəti qələbəsini qazanıb







Fevralın 27-də Sərhədçi İdman Olimpiya Mərkəzində Azərbaycan Basketbol Liqasının növbəti turunun oyunları keçirilib. XV turda Ordu İdman Klubunun komandası "Quba" komandası ilə qarşılaşıb.

Komandamız rəqibini üstələyərək 103:68 hesabı ilə inamlı qələbə qazanıb.

Qeyd edək ki, B qrupunda mübarizə aparan Ordu İdman Klubunun komandası xallarının sayını 26-ya çatdırıb.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə terrorçulara çağırış: Silahlar yerə qoyulmalı, PKK özünü buraxmalıdır



Türkiyədə fəaliyyət göstərən DEM Partiyasının heyəti bu gün İmralı adasındakı həbsxanada saxlanılan PKK terror təşkilatının lideri Abdulla Öcalanla üçüncü dəfə görüşüb.

Adaya səfərdən sonra İstanbulda mətbuat konfransı keçirən heyət üzvləri tərəfindən terror qruplarına silahların yerə qoyulması və PKK-nın özünü buraxması ilə bağlı çağırışı oxunub.

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) sədrinin vəkili Afkan Ala bununla bağlı açıqlama verərək deyib: "Çağırışın mahiyyəti silahların yerə qoyulması və terror təşkilatının özünü buraxmasıdır. Biz nəticəyə baxırıq".

## Avropada ümumi müdafiə fondunun yaradılması müzakirə edilir



Avropa İttifaqına (Aİ) üzv ölkələr Böyük Britaniyanın iştirakı ilə Avropa Silahlanma Bankının və ümum-Avropa müdafiə maliyyələşdirilməsi fondunun yaradılmasını müzakirə edirlər.

"Financial Times" qəzeti bu barədə avropalı məmurlara istinadla məlumat yayıb.

Məlumata görə, Aİ-nin maliyyə nazirləri Cənubi Afrika Respublikasında toplaşaraq Böyük Britaniyanın iştirakı ilə Yenidən Silahlanma Bankının və ya ümumi fondun yaradılması məsələsinin müzakirəsinə başlayıblar.

Yenidən Silahlanma Bankı həm özəl sektora, həm də hökumətlərə hərbi texnikanın alınması, eləcə də sənaye layihələri üçün kreditlər verə bilər. Hazırda Avropa İttifaqına sədrlik edən Polşanın bu təklifi dəstəklədiyi bildirilir.

Analitiklərin fikrincə, Böyük Britaniya və Avropa İttifaqı arasında ümumi fondun təşkil olunması inzibati baxımdan daha asandır və məhdud miqyası onu bankdan daha tez yaratmağa imkan verə bilər.

## NATO-nun Baş katibi Ukraynaya yardım və təhlükəsizlik zəmanəti vəd edib



NATO-nun Baş katibi Mark Rutte ABŞ Prezidenti Donald Trampla telefon danışığı aparıb.

Bu barədə o, X sosial şəbəkəsindəki hesabında yazıb.

"NATO-nun müttəfiqləri müdafiə sahəsinə investisiyalarını fəal şəkildə artırırlar", - deyə M.Rutte vurğulayıb.

NATO-nun Baş katibi qeyd edib ki, alyans ölkələri Ukraynaya milyardlarla yardım, eləcə də təhlükəsizlik zəmanətləri hazırlayır. Bununla belə, Rutte konkret olaraq blokun hansı üzv dövlətlərinin bunda iştirak etdiyini açıqlamayıb.

Bundan əvvəl Tramp Ukraynanın Şimali Atlantika Alyansına qoşulmayacağını bildirmişdi.

## Pusanda Asiyanın ən böyük dron sərgisi keçirilir



Pusanda müdafiə və kosmosdan tutmuş gələcək mobilliyə qədər müxtəlif sənaye sahələrində istifadə oluna bilən dron texnologiyalarını nümayiş etdirən Asiyanın ən böyük dron sərgisi olan Drone Show Korea (DSK) keçirilir.

Yonhap agentliyi xəbər verir ki, sərgidə 15 ölkənin 306 şirkətinin dron texnologiyaları nümayiş edilir. Bildirilib ki, bu il sərginin 10 illik tarixində ən çox şirkətin iştirak etdiyi bir ildir.

Tədbir öz sərgisinin əhatə dairəsini yeni məkan, gələcək mobillik, karbon neytrallığı və süni intellekt (AI) kimi dronlarla əlaqəli sənaye sahələrinə qədər genişləndirib.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunda daşqaldırma birinciliyi keçirilib



2025-ci ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunda hərbi qulluqçular arasında daşqaldırma birinciliyi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, bağlanış mərasimində Ümummilli Lideri Heydər Əliyevin, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Birdən və təkanla qaldırma üzrə 43 nəfər hərbi qulluqçunun 6 çəki dərəcəsində mübarizə apardığı yarışda ümumilikdə 8 komanda iştirak edib.



Yekun nəticələrə əsasən "Quru Qoşunları" komandası birinci, "Hərbi Hava Qüvvələri" komandası ikinci, "Heydər Əliyev adına Hərbi İnstitutun" komandası isə üçüncü yerə layiq görülüb.

Sonda qalib komandalara mükafatlar təqdim olunub.

# Hərbi qulluqçumuza emblem təqdim olunub




Fevralın 27-də FIFA hakimi kimi bu il fəaliyyət göstərəcək Azərbaycanın referi və referi köməkçilərinə müvafiq emblemlərin təqdim olunması mərasimi keçirilib.

Mərasimdə AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev, baş katibi Cahangir Fərəcullayev, Hakimlər Komitəsinin sədri Frank De Blekere və AFFA-nın dəvəti ilə Bakıda səfərdə olan UEFA Hakimlər Komitəsinin üzvü Byorn Kuypers, eləcə də digər qonaqlar iştirak ediblər.

Qeyd edək ki, emblem təqdim olunanların sırasında Azərbaycan Ordusunun hərbi qulluqçusu, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) referisi Nail Nağıyev də var.

Komandamız Azərbaycan Basketbol Liqasında növbəti qələbəsini qazanıb.

Fevralın 27-də Sərhədçi İdman Olimpiya Mərkəzində Azərbaycan Basketbol Liqasının növbəti turunun oyunları keçirilib.

XV turda Ordu İdman Klubunun komandası "Quba" komandası ilə qarşılaşıb. Komandamız rəqibini üstələyərək 103:68 hesabı ilə inamlı qələbə qazanıb.

Qeyd edək ki, B qrupunda mübarizə aparan Ordu İdman Klubunun komandası xallarının sayını 26-ya çatdırıb.

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 57
Nüsxə 3663